**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№386/4** **11 mart 2026-cı il**

**2025-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil barədə**

Auditorlar Palatasının 2026-cı il üzrə iş planının 4.1-ci "2025-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) tərəfindən hazırlanmış icmal-təhlili müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2025-ci ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil" bəyənilsin (əlavə olunur).

2. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi komitəsinə (S.Vəlizadə) və Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik"ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.

3. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, Azərbaycan Respublikasında "Auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar"ın cari ilin oktyabr ayının sonunadək yeni versiyasının hazırlanıb Palatanın rəhbərliyinə təqdim olunması təmin edilsin.

4. Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Kadr hazırlığı idarəsinə (E.Hacıyeva) tapşırılsın ki, icmalın nəticələrinə uyğun olaraq cari ilin aprel ayında "Ən çox əməl edilməyən peşə standartları" mövzusunda seminarın keçirilməsini təmin etsinlər.

5. Keyfiyyətə nəzarət və keyfiyyətin idarəedilməsi üzrə keçirilmiş monitorinqlər zamanı aşağıda adları qeyd olunan və 5 (Keyfiyyətli) qiyməti almış üzvlərə audit zamanı Beynəlxalq Audit Standartlarının tələblərinə məsuliyyətlə yanaşmalarına görə şəxsi işlərinə qeyd olunmaqla təşəkkür elan edilsin.

Auditor təşkilatları:

- "ABAK-Az Crovve LTD" MMC (Direktor: Hüseynov Zamin Ramazan oğlu);
- "BKR İŞIK Konsaltinq" MMC (Direktor: Şahtaxtinskaya Aysel Elçin qızı);
- "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı (İdarəedici partnyor: Vəliyev İlqar Əflatun oğlu);

- “L.B. Audit xidməti” MMC (Direktor: Bayramova Lamiyə Qəşəm qızı);
- “Moore Stephens Azerbaijan” MMC (Direktor: Əhmədov Fariz Nadir oğlu);
- “PRAYSVOTERHAUSKUPERS AUDİT AZƏRBAYCAN” MMC (Direktor: Mustafayev Fəxri Üzeyir oğlu).

Sərbəst auditorlar:

- Hacı-Əzizov İlham İsfəndiyar oğlu;
- Kərimov Şamxal Vəli oğlu.

6. Keyfiyyətin idarə edilməsi şöbəsinin müfəttişləri Hacı-Əzizov İlham İsfəndiyar oğluna, Kərimov Şamxal Vəli oğluna və Talıbov Vidadi Musa oğluna 2025-ci il ərzində keyfiyyətə kənar nəzarət qaydasında həyata keçirilmiş monitorinqlərdə fəal iştirak etdiklərinə görə şəxsi işlərinə qeyd olunmaqla təşəkkür elan edilsin.

7. 2025-ci il ərzində keyfiyyətə kənar nəzarətə dair monitorinqlərdə fəal iştirak etmiş Auditin transformasiyası, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin əməkdaşları mükafatlandırılsınlar.

8. Bu qərarın və icmal-təhlilin mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**